# Gözümüzü dağlayan, könlümüzü odlayan faciələrimiz

Fəridə Hicran vətənpərvər ruhlu ziyalı tədqiqatçıdır. Onun rus (tərcüməçi mərhum İmran Seyidov), ingilis (tərcüməçi Sahilə Mustafayeva) və Azərbaycan dilində işıq üzü görən "Qarabağda talan var" kitabı da məhz onun fədakar vətənpərvərliyi sayəsində araya-ərsəyə gəlmişdir. Kitab isti-isti izlərlə yazılmışdır. Yəni Qarabağda ermənilərin xalqımızın günahsız övladlarına qarşı törətdikləri cinayətləri Fəridə Hicran demək olar ki, elə anındaca – həmin vəhşiliklərin edildiyi ərəfələrdə fədailik göstərərək odlu-odlu bir ürəklə qələmə almışdır. Xalq şairi Nəriman Həsənzadə "Fəridə Hicranın "Qarabağda talan var" yazısı mənim də ürəyimə talan saldı" deyərək ön sözdə yazır: "Mən onun yazdığı bu sənədli kitabda gözüylə odlar-alovlar görmüş bir azərbaycanlı qızının iztirablarını oxudum. Bu elə bir tarixi salnamə, elə bir ittihamnamə, elə bir sənəddir ki, heç bir cani öz cinayətini zaman qarşısında, tarix qarşısında gizlədə bilməyəcəkdir. Fəridə çox gözəl yazır ki, kaş uşaqlarımız, böyüklərimiz canavarlara rast gələydi, nəinki erməni vəhşilərinə.

Birbaşa oxuya bilmədiyim bu əsər göz yaşı ilə islanmış şəkillər, bədbəxt ana laylasıdımı, yoxsa gözləri ilə odlar, alovlar görmüş azərbaycanlı qızının harayı, naləsi, hıçqırıqdırmı? Və ya heç bir millətin tarixində görünməmiş faciəvi yasmı, üsyanmıdır? Nəhayət, hansısa bir qəddarın çıxardığı ədalətsiz, sənədli hökmüdürmü?"

Bəli, F.Hicran özü isə bu kitabın ağrı-acılardan doğulduğunu giriş yazısında belə ifadə edir: "Bu qanlı hekayətin bir çox məqamlarında üç nöqtə görəcəksən... Təəccüblənmə bu nöqtələrin çoxluğuna... Bu nöqtələr deyə bilmədiyim dəhşətli hadisələri, qəlbimi didən, parçalayan, dilimin ucunu yandıran ifadələri əvəz edir.

İnsanın əli hər yerdən üzüləndə sözə, onu da bacarmayanda nöqtələrə sığınarmış. Bu nöqtələrdə sən də özündə cavabını tapa bilmədiyin bir çox suallara cavab ara. Qarabağ talanı baş alıb gedir... Kənd kənd dalınca, şəhər şəhər dalınca əlimizdən çıxır... Və bu gedişlə əlimin altındakı kitabın yazılıb başa yetməyi yəqin ki, uzun çəkəcək... Qoy bundan sonra başımıza gələn hal-qəziyyələri də sizə bu nöqtələr söyləsin..." Bu müraciət oxuculara ünvanlanan müəllif etirafı, müəllif mesajı kimi də düşünülə bilər. Ona görə ki, elə acı həqiqətlərdən söhbət açılır ki, onları ağ kağızın bəmbəyaz sinəsinə nöqtələr şəklində həkk etməkdən başqa ayrı əlacı qalmır yazarın. Çünki ürək tab gətirmir o ağırlıqdakı nisgili ifadə eləmək üçün barmaqları kağız üzərində irəli yeritməyə, yazını yazdırmağa. O ağırlığa nə ürək tablaya bilir, nə də ki, əlin-barmaqların gücü çatır ki, kağız üstündə o ağırlıqları daşıya bilsin. Bəs kitabdakı o ağır kədər nələri söyləyir? Bu dəfə "Aç aç bu vərəqləri!" deyən müəllif təkid edir: "Aç!.. Aç bu vərəqləri, burada minlərlə günahsız insanların acı taleyindən sətirlər var!...

Aç, səhifələ bu kitabı, onların arasında müqəddəs, məsum körpələrin üstünə tuşlanan düşmən güllələrinin izi var!...

Aç, oxu bu qanlı misraları! Burada ata-ana dağı ilə yanan bala, bacı, qardaş həstəri ilə döyünən ürəklərin iniltisi var!..

Kəsilmiş körpə başları, soyulmuş insan cəsədləri haqqında oxuyandan sonra bir daha yəqin edəcəksiniz ki, adamların arasında vəhşilərdən dəhşətli yırtıcılar varmış... Çayın kənarında iki körpə insan balasını görən vəhşi canavar onlara toxunmamış, öz yuvalarına aparıb, balaları ilə birgə böyütməyə səy göstərmişdir. "Amala və Kamala" hadisəsi kimi bütün dünyada məşhur olan bu hadisəni görəsən erməni vəhşiləri oxumamışdımı?

Vəhşiliyin həddi-hüdudu olmazmış, İlahi?! Vəhşilərdən qəddar olan bir varlığa nə ad vermək olar, Ya Rəb? Qırx günlük, iki aylıq, dörd, beş, altı, yeddi, səkkiz, doqquz, on yaşlı bu körpələrin günahı nəymiş, Pərvərdigar? Bəs sən niyə susursan, ay Allah?" Bax budur Fəridə Hicranın kitabının vərəqlərində asılıb qalan ağırlığın sirləri. 1987-ci ildən başlanan Qarabağ münaqişəsinin gərgin dramatizmini təfsilatı ilə açıb göstərir:




"Nəhayət, 1988-ci il fevral ayının 21-də səbr kasası dolan Ağdam rayon gəncləri torpağımıza göz dikib, milli qeyrətimizə toxunan erməni şərəfsizliyinə qarşı etiraz mitinqi təşkil etdilər və səhəri günü Əsgəran rayonuna ciddi yürüş başlandı. Fevral ayının 22-də səhər saat $9^{00}$-da atılan bu ilk addımlar bəlkə də Qarabağın acı taleyini birdəfəlik həll edə bilərdi.

Həmin gün iki qurban verildisə də, bu yürüş yarımçıq qaldı... Gənclərimizi 366-cı polk qarşıladı... Ağdam gəncləri Əli və Bəxtiyar doğma torpaqlarının, milli qeyrətlərinin yolunda sinələrini güllə önünə verən ilk qurbanlar oldular.

Yenidən mavi ekranlarda, qəzet və jurnallarımızda qardaşlıqdan, beynəlmiləl dostluqdan verilişlər silsiləsi başlandı.

Ermənilər isə deyirdilər ki, siz saydıqlarınızı sayın, görün fələkdən qəddar olan vəhşilər nə sayır... Çox çəkmədi alçaq siyasətini min bir oyunla həyata keçirən quldurlar fevral ayının 28-də Sumqayıtda yeni bir oyun da oynadılar və bunu da bizim xalqın üstünə atdılar...

Kəndlər viran qalırdı... Kərkicahanın faciəsini bir yanıqlı, nisgilli torpaq, bir də orda dörd ildən bəri vuruşan, mübarizə aparan, bu yolda qurban gedən və ya yarımcan geri qayıdan oğullar özü bildi. Meşəlinin faciəsini orada yanıb külə dönənlərin qohum-əqrəbasından başqa heç kim bilmədi... Xocavənd də elə bu cür...

Humanistliyimizi görən erməni millətçiləri fəallaşmağa başlayırdı. Xankənddəki Azərbaycan evləri yandırılırdı, Xocavəndə, Kərkicahana, Xocalıya basqınlar olurdu." Etiraf edək ki, F.Hicranın bu qeydləri Qarabağ münaqişəsinin hansı yollarla başlaması və necə qızışdırılması ilə bağlı səhih informasiya çatdırır. Heç təsadüfi deyil ki, müəllif özü bu günlərdə bu kitabını aparıb beynəlxalq Haaqa məhkəməsinə təqdim edib və ərzi-halımızı orada bəyan edərək bu kitabda qoyulan məsələlərin Haaqa məhkəməsində ədalətlə reaksiya doğuracağına, haqq-ədalətin öz yerini tapmasına ümidvar olduğunu bildirib. Doğrudan da, Fəridə xanım bu kitabını canlı şahidlərin dilindən faktlara əsaslanaraq qələmə alıb və həmin faciənin qurbanlarının real fotoşəkillərini təqdim edib ki, bu da oxucularda Qarabağ müharibəsinin detalları haqda ümumi və bitkin fikir formalaşdırır. Başqa sözlə, Qarabağ müharibəsi hansı vaxtda, hansı şəraitdə başlayıb və s. bu kimi suallara burada aydın cavablar tapmaq mümkündür. Şəxsən bir oxucu kimi deyim ki, mən Qarabağ məsələsi başlanan dövrdə - 1987-1989-cu illərdə Sovet Ordusunda xidmətdə olduğumdan, Azərbaycanda deyildim və bu proseslərin necə törədilməsi – Kərkicahan, Xocavənd, Meşəli və başqa faciələrdən o vaxtlar tam məlumatsız idim. Ancaq indi F. Hicranın bu kitabını mütaliə edərkən bir daha o vaxtlar ölkəmizdə cərəyan edən hadisələrdən hali oluram. O vaxtlar ölkədən kənarda olan bir şəxs kimi mən bu kitabı vərəqləyərkən, vətənimizin hansı gərgin durumda olduğunu təsəvvürümdə canlandırıram. Bu sözləri deməkdə məqsədim onu çatdırmaqdır ki, Fəridə xanım bu əsəri ilə Qarabağ həqiqətlərini tam təfsilatı ilə nəql edib, oxuculara çatdırmağı bacarıb. Bu da, hər şeydən əvvəl, ondan irəli gəlir ki, müəllif hadisələri gözlətmədən – isti-isti qələmə alıb, vətən üçün alışıb-yanan istiqanlı ürəyinin isti-hərarətli nəfəsi ilə qələmə alıb. Birbaşa hal şahidlərini, müharibə ağrı-acılarını həyatlarında yaşayanları danışdırmaqla kitabı yazıya alıb. Həm də hadisələri real şəkildə - faktlara əsaslanmaqla təsvir edib. "Əfsanəyə bənzər həqiqətlər" adlı yazıya diqqət çəkək:

*(Davamı 15-ci səhifədə)*

*(Əvvəli 12-ci səhifədə)*

"1992-ci il fevralın 10-da Malıbəyli və Quşçular faciəsi baş verdi. Bu faciənin də əsas məğzi gizlədildi. Hay-küy salan Malıbəyli camaatı susduruldu. Nakam Elşadın nisgili ürəyində, cəsədi isə ermənilərin əlində qaldı. Balasını yaralı qoyub gəlmək istəməyən ata oğluna güllə açdı. Başqa faciələri görməyən Tanrı bu dəhşəti gördü, çarmax çəkilmədi. Elşad özü öldü... Havalanan ata əlində iki patron tanıdığı-tanımadığı adamlara and içməyə başladı... Elşad özü öldü, onu mən vurmadım... dedi. Yazıq Barat dayı hardan biləydi ki, onun 20 yaşlı yaralı oğlu Elşada: "Qurban olum, Elşad, səni atımmı?" sualını bir Allah, bir özü, bir də yaralı Malıbəyli camaatı eşidib. Vəssalam. Meşədə yaralı qardaşının yanında qalan Xassənin də faciəsini açıb-ağartmadılar.

Hələ ürəyində ana nisgili gəzdirən Şahları demirəm. Yaşlı anasını ağacın altında oturdub gələn Şahlar, sənin nələr çəkdiyini eşidənlər bilər. Ancaq nə fayda...

Malıbəylidə belə hadisələr çox oldu. Canını qurtara bilməyən yaralıların: - Məni atın! – deyə yalvarışları hamını dəhşətə gətirdi. Amma bu dəhşətli hadisələr yuxarılara çatdırılsa da, heç onların tükünü belə tərpətmədi. Elə buna görə də dişlərində şirə qalan erməni yırtıcıları Qaradağlı faciəsini daha geniş planda həyata keçirdilər."

Tükürpədici, dəhşətli faciələri müəllif əbəs yerə "Əfsanəyə bənzər həqiqətlər" adı altında təqdim etməyib. Çünki belə faciələrə əfsanə, nağıl janrında olan epik təhkiyə formullarında rast gəlinə bilərdi. Amma yuxarıda təsvir olunanlar nə nağıldır, nə əfsanə, yaşamış olduğumuz real acı həyat həqiqətləridir ki, adam oxuduqca, eşitdikcə tükləri biz-biz olur, dəhşətdən adamın gözləri bərələ qalır. Bəs niyə dünya bu dəhşətə göz yumur, qulaqlarını karlığa vurub eşitmək istəmir?..

# Gözümüzü dağlayan, könlümüzü odlayan faciələrimiz

Bəşəriyyət laqeydlik azarına tutulubmu? Məhz bu karlıq, korluq xəstəliyi, laqeydlik XX əsrin ən dəhşətli bəşəri faciəsi olan Xocalı soyqırımını doğurdu. F.Hicranın "Qanlı hekayətlər" adı ilə yazdıqları da elə bu faciədən bəhs edir: "Tahir Kərimlinin belə dəhşətli anlarda tez –tez Ağdam rayonuna gəldiyi günləri də qeyd etməmək olmaz. Onun axırıncı dəfə ştabdan bizimlə birgə prezident aparatına zəng vurub, "balam, niyə qırdırırsınız bu camaatı, heç olmasa iki vertalyot verin, bu arvad-uşağı çıxarsınlar" – deyə Xocalıya vertalyot istədiyi gündən cəmi ikicə gecə keçdi... Üçüncü gecə o dəhşətli gecə oldu... O gecə... O gecə... O gecə ki, Tanrı yatmışdı. O gecə ki, onlara adam demək olmaz, quduzlaşmışdılar. O gecə ki, yüzlərlə altı yaşlı Samirələr, qırx günlük Natəvanlar güllələnirdi... O gecə ki, qocaların başı kəsilirdi... O gecə ki, ana və bacılarımızın naləsindən, yalvarışlarından həzz alan erməni vəhşiləri onların başına min bir oyun açırdı... O gecə ki, insan cəsədləri sökülmüş, dağıdılmış kitab vərəqləri kimi meşələrə, Kətiyin dağlarına səpələnmişdi. O gecə ki, açılan səhərləri yük maşınlarında daş əvəzinə insan cəsədləri daşınırdı... O gecə ki, Allah da susmuşdu" (səh. 40). El arasında belə bir ifadə var ki, Allah belə zülmü, belə müsibəti götürməz. Yəni ağır işgəncələrə Allah yol verməz inancı, düşüncəsi var ki, bu inama görə Allah-təala yaratdıqlarına mərhəmət göstərib ağır bəlaların qarşısını alar, ağır cinayətlərin baş verməsinə imkan verməz. Amma 1992-ci il fevralın 25-dən 26-na keçən o qanlı gecə baş verdi. Bəs niyə Allah yol verdi bu bəlalı müsibətə sualına F.Hicran belə məna verir ki, ona görə Allah susmuşdu ki, o gecə Allah yatmışdı, Allahın bu faciələrdən xəbəri olmadı. Bəli, Allahsız iş tutdular erməni cəlladları o gecə; Allahın Allahsız işdən xəbəri olmadı. Bir də ki, Allah xofu adamın ürəyində olmalıdır. Qaniçən haylar – ermənilər axı o gecə adam qiyafəsində olan şeytanlar idilər. Şeytanların isə Allahdan xəbərləri olmur. Quduzlaşmış ermənilər quduz it kimi qabaqlarına keçənləri daladılar, heç bir inli-cinli onların gözlərində yox idi, heç kəsə aman-iman vermədilər.

Ruhumuzu çarmıxa çəkən, içimizi göyüm-göyüm göynədən yaralarımız Fəridə Hicranın "Qarabağda talan var" kitabından üç dildə dünyaya səslənir, cinayətkarları beynəlxalq miqyasda ittiham olunmağa çağırır.